

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

№ 078 (6761)

6 may 2023-cü il.
Qiymәti 60 qәpik

### Leyla Əliyeva Ulu Öndərin 100 illiyinə həsr edilən ekoloji aksiyalarda iştirak edib



4

# Hədəf quruculuq və inkişafdır!



2

# Ermənistanın vəziyyəti: "pat", yoxsa "parter"?

8



### Marat Terterov: "Prezident İlham Əliyev Avropadakı bir çox liderlər üçün nümunədir"



6

### Sağlamlıq turizmi - dayanıqlı inkişaf



12

### "Ermənistan üçün ən yaxşı yol Azərbaycanın uzatdığı sülh əlini sıxmaqdır"



11

## Tərbiyəçi-müəllimlərə niyə vakant yer tapılmır?



16

## Biz dünyanı faşizmdən 2 dəfə xilas etdik

*60 milyona yaxın insanın həlakı, onlarla ölkənin, on minlərlə şəhər kəndin dağılması ilə müşayiət olunan II Dünya Müharibəsi illəri bəşəriyyət tarixində ən ağır və dəhşətli dövr oldu.*



11

# Hədəf quruculuq və inkişafdır!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Füzuli rayonlarına səfər ediblər*



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd rayonuna səfər ediblər. Dövlətimizin başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verildi.***







Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirdi ki, Agentlik Tuğda təqdim etdiyi turizm konseptual yanaşma çərçivəsində üç istiqamətdə - tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin inkişaf etdirilməsi, təbiət resurslarından səmərəli istifadə edib ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin inkişaf etdirilməsi və aqroturizm resurslarından istifadə etməklə dayanıqlı və icma əsaslı turizm inkişaf konsepsiyası üzrə layihələrin həyata keçirilməsini planlaşdırır.

Qeyd olundu ki, ilk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası nəzərdə tutulur. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası layihəsi həyata keçirilə bilər. Çünki Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi nəzərdə tutulur. Tuğ kəndinə gələcəkdə turizm axını ilə əlaqədar burada keyfiyyətli xidmətlərin göstərildiyi iaşə obyektinin yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində İnzibati Mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma ilkin mərhələdə Tuğ kəndinin ictimai-inzibati mərkəzində inşası planlaşdırılan binalar barədə məlumat verdi.

Bildirildi ki, kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada tikiləcək və bərpa ediləcək binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq.

Ərazidə genişmiqyaslı abadlıq işlərinin görülməsi, yerüstü parkinq sahəsinin yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur. Dövlətimizin başçısı İnzibati Mərkəzin təməlini qoydu.

Ardı Səh. 3

# Hədəf quruculuq və inkişafdır!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Füzuli rayonlarına səfər ediblər*





Əvvəli-Səh-2

Mayın 5-də Xocavənd rayonunun Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məhəllənin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 99 hektara yaxın olan ilk yaşayış məhəlləsi Tuğ kəndinin təsdiq edilmiş Baş planına uyğun qaydada salınacaq. 1089 nəfərin yaşaması üçün nəzərdə tutulan məhəllədə birinci mərhələdə 24 tarixi fərdi ev bərpa ediləcək, 95 ev isə yenidən tikiləcək. Növbəti mərhələlərdə isə məhəllədə 244 yeni fərdi evin tikilməsi nəzərdə tutulur.

Məhəllədə 360 yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, ticarət mərkəzləri, məscid, kilsə, tibb məntəqəsi, aptek, idman sağlamlıq sahəsi, tərəvəz və meyvə anbarı da olacaq. Ümumiyyətlə, yaşayış məhəlləsində əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Diqqətə çatdırıldı ki, Tuğ kəndində bir sıra binaların - inzibati bina, klub-icma mərkəzi, məktəb, bağça və 15 fərdi evin tikinti-bərpa işlərinin 2024-cü ilin martında tamamlanması planlaşdırılır. Dövlətimizin başçısı Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Dünən həmçinin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış oldular. Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi.

Bildirildi ki, bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Hadrut qəsəbəsində inzibati mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi. Bildirildi ki, inzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir.

Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır. Prezident İlham Əliyev Hadrut qəsəbəsində inzibati mərkəzin təməlini qoydu.

Prezident İlham Əliyev Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb. Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verildi. Bildirildi ki, Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kəndə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 70,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi nəzərdə tutulur.

Kənddə çoxfunksiyalı inzibati binanın, mehmanxana və kafe-restoranın, məscid və mərasim evinin, yanacaqdoldurma məntəqəsinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 480 yerlik orta məktəbin, 80 yerlik 2 uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, bazarın, rabitə qovşağının tikintisi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır. Prezident İlham Əliyev Pirəhmədli kəndinin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.





Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 km olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını “Zəfər yolu”ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir.

Layihəyə əsasən yolun 6,7 kilometrliyində “Qarğabazarı” adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib, Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar, həmçinin Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.



# Leyla Əliyeva Ulu Öndərin 100 illiyinə həsr edilən ekoloji aksiyalarda iştirak edib












*Yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar mayın 5-də Lənkəran rayonunda silsilə ekoloji aksiyalar keçirilib.*

AZƏRTAC xəbər verir ki, ilk olaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və gənc könüllülərin iştirakı ilə Lənkəran rayonunun meşə fondu ərazisində ağacəkmə tədbiri keçirilib. Meşəbərpa məqsədilə keçirilən tədbirdə adı Azərbaycanın “Qırmızı kitabı”na düşmüş dəmirağac əkilib.

Sonra Hirkan Milli Parkında turistlərin rahat hərəkət etməsi üçün ekoturizm cığırının “çex modeli” üzrə nişanlanması həyata keçirilib. Sözügedən üsulun ölkəmizdə ekoturizmin inkişafına təkan verməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərində geniş tətbiq edilməsi nəzərdə tutulur.

Tədbirin davamı olaraq, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrində balıq populyasiyasının mühafizəsinə və artırılmasına yönəlmiş “Zəngin hövzələr” layihəsi çərçivəsində Xanbulan gölünə balıq körpələrinin buraxılışı həyata keçirilib. Belə ki, sözügedən gölə ümumilikdə 50 000 ədəd çəki körpəsi buraxılıb.

Daha sonra Bakı Zooloji Parkı tərəfindən Azərbaycanın nadir və nəsli kəsilməkdə olan fauna növlərinin çoxaldılması üzrə IDEA İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində təqdim edilən 7 baş tirəndaz (oxlu kirpi) Hirkan Milli Parkının ərazisinə buraxılıb. Lənkəranda keçirilən ekoloji aksiyaların təşkilatçıları ölkə ictimaiyyətini Azərbaycanın zəngin və həssas biomüxtəlifliyinin mühafizə edilməsi, yaşıllıqların artırılması, bərpası və ətraf mühit naminə görülən digər səylərdə fəal iştirak etməyə çağırır.

# “Arabnews”: Azərbaycan sülhü və sabitliyi təmin etmək üçün nəzarət-buraxılış məntəqəsi qurub


ARAB NEWS
SAUDI ARABIA MIDDLE EAST WORLD BUSINESS MEDIA LIFESTYLE OPINION SPORT RESEARCH & STUDIES PODCAST
Azerbaijan establishes a checkpoint for future peace and stability
Shahin Abdullayev
03 May 2023

*Səudiyyə Ərəbistanının ingilis dilində nəşr edilən nüfuzlu “Arabnews” qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin “Azərbaycan sülhü və sabitliyi təmin etmək üçün nəzarət-buraxılış məntəqəsi qurub” sərlövhəli geniş məqaləsi dərc edilib.*

AZƏRTAC xəbər verir ki, məqalədə Cənubi Qafqaz regionunun zəngin ehtiyatlara malik olan Mərkəzi Asiya ilə Avropa iqtisadiyyatı arasında mühüm coğrafi kəsişmə məkanı olduğu, bu baxımdan Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhün bütün Avrasiya məkanı üçün böyük əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Müəllif qeyd edib ki, Azərbaycanın İkinci Qarabağ müharibəsindəki Qələbəsindən sonra tarixin keçmişə aid vərəqini çevirməyin, düşmənçiliyə son qoymağın və münasibətləri beynəlxalq hüquq müstəvisində normallaşdırmağın zamanı gəlib çatıb. Bu kontekstdə Qərb ölkələri Bakının konstruktiv təkliflərinə daha həssas yanaşmalıdır. Təəssüf ki, Ermənistan və erməni diasporu, habelə onların Qərbdəki havadarları faktları təhrif edir, regionda yaranmış yeni reallığı başa düşmək istəmirlər. Bunun bariz nümunəsi Laçın yolu haqqında yayılan yanlış xəbərlər, Qarabağda yaşayan ermənilərin guya blokadaya alınması barədə məlumatlardır. Halbuki 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanan üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan tərəfi sülhün və təhlükəsizliyin təmin edilməsi üçün silahlı hərbi birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmalı idi. Bunun əvəzinə, İrəvan Laçın yolu ilə həmin əraziyə silah-sursat və minalar, silahlı dəstələr göndərir.

Məqalədə qeyd olunub ki, ötən əsrin 90-cı illərində - Birinci Qarabağ müharibəsi zamanı və ondan sonrakı dövrdə ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti aparıb, 800 mindən çox dinc azərbaycanlı sakin Qarabağda öz doğma yurdlarından didərgin salınıb. İndi erməni təbliğatının apardığı saxta təbliğatın heç bir əsası yoxdur. Belə ki, Azərbaycan tərəfi Qarabağda yaşayan ermənilərin bütün hüquqlarını təmin edəcəyini bildirir, eyni zamanda, onların Laçın-Xankəndi yolu ilə təhlükəsiz gediş-gəlişini təmin edir. Bakı, həmçinin Qırmızı Xaç Cəmiyyətinin həmin yol ilə sərbəst hərəkətinə imkan yaradıb.

Sonda vurğulanıb ki, İrəvan regionda sülhün bərqərar olması üçün təxribatlara son qoymalı, Qarabağ ermənilərindən hakimiyyət oyunlarında bir alət kimi istifadə etmək siyasətindən əl çəkməlidir. Yalnız dayanıqlı sülhə nail olmaq istiqamətində atılacaq konstruktiv addımlar Ermənistanı gələcək fəlakətlərdən xilas edə bilər.

# Heydər Əliyev-100



***Azərbaycanın görkəmli dövlət xadimi, xalqın və ölkənin taleyində əvəzsiz rol oynayan Ulu Öndər Heydər Əliyev zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə ölkəmizdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olan Ulu Öndər Heydər Əliyevin - tarixi Şəxsiyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən, bildiyimiz kimi, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edildi. Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti dövlətin gələcək həyatının inkişafına hesablanmışdır.***

## Müstəqil Azərbaycan - Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti!

Belə ki, Ulu Öndər Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin dirçəlməsində, onun mövqeyinin, təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu və Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaratdı. Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu.

### PARLAQ QURUCULUQ DÖVRÜ

Hələ Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksətdi. Ulu Öndər yazırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi". Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Həmin illər sovet Azərbaycanının tarixinə, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Ulu Öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı Onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

### ULU ÖNDƏRİN MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASI

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. YAP-ın yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində müstəsna rol oynadı və Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Mürəkkəb siyasi şəraitdə Ümummilli Lider Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu.

### XALQIMIZI VAHİD AMAL ƏTRAFINDA BİRLƏŞDİRƏN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Ulu Öndər Heydər Əliyev Böyük Şəxsiyyət olaraq, cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə ölkədə demokratik islahatlar aparıldı. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

### AZƏRBAYCAN ÖZ SUVERENLİYİNİ, MÜSTƏQİLLİYİNİ QORUMAĞA QADİR OLAN DÖVLƏTDİR

Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Möhtəşəm nailiyyətlərin əldə olunması Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir.Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaratmış oldu. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açdı. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

***Zümrüd BAYRAMOVA***

# Xalqımızın xilaskarı, müstəqil Azərbaycan dövlətinin banisi





“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Bərdə rayon təşkilatı mayın 5-də rayon Mədəniyyət Mərkəzində “Ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusudur” mövzusunda tədbir keçirib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini, rayon Şəhidlər xiyabanını, mülki şəhidlərin xatirəsinə salınmış Xatirə lövhəsini ziyarət ediblər.

Sonra Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sərgiyə baxış olub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyev fenomenal şəxsiyyətdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər respublikamızın yüksəliş illəridir. Ümummilli lider Heydər Əliyevin fəaliyyətində doğma xalqına bağlılıq daim özünü göstərib. Ulu Öndər Azərbaycan dövlətini tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarıb. Bu məsuliyyətli işin öhdəsindən isə müdrik siyasəti ilə gəlib.




Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında qeyd edib ki, ümummilli lider Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövr Azərbaycanı böyük Zəfərə aparan yolun başlanğıcı olub.

YAP İdarə Heyətinin üzvü Asif Əsgərli vurğulayıb ki, Ulu Öndər əsl müstəqillik qazanmaq, dövlətçilik ənənələrini bərpa etmək və milli inkişafa nail olaraq sabaha inamla addımlamaq missiyasını öz üzərinə götürməklə Zəfərə aparan yolun əsasını qoyub. Sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini inşa edib.

Çıxış edən Prezident təqaüdçüsü Tərlan Musayeva, Kiyev Milli Aviasiya Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunun professoru, hüquq elmləri doktoru Arif Quliyev, təqaüdçü Nizami Quliyev ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs ediblər. Sonra rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim edilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il mayın 5-də YAP Tərtər rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə rayon Heydər Əliyev Mərkəzində Ulu Öndərin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.



# Ceyhun Bayramovla Mövlud Çavuşoğlu arasında telefon danışığı olub

***Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı xarici işlər nazirləri Azərbaycanla Türkiyə arasında gündəlikdə duran ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə mövcud regional vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.***




Nazirlər həmçinin Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə aparılmış son danışıqları müzakirə ediblər. Tərəflər telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə toxunublar.

# Marat Terterov: “Prezident İlham Əliyev Avropadakı bir çox liderlər üçün nümunədir”



Bugünkü beynəlxalq konfransda iştirak etməkdən məmnunluq duyuram. Prezident İlham Əliyevin çoxsaylı suallara qeydsiz, hazırlıqsız cavabları tədbir iştirakçılarını heyran etdi. Bu sözləri AZƏRTAC-a açıqlamasında Brüssel Enerji Klubunun nümayəndəsi Marat Terterov deyib.

O qeyd edib: “Bugünkü tədbir Azərbaycan Prezidentinin geosiyasət və strategiya üzrə ekspert kimi bacarıqlarını nümayiş etdirdi. Düşünürəm ki, sizin Prezidentiniz Avropadakı bir çox liderlər üçün həqiqətən də nümunədir və siz onunla fəxr edə bilərsiniz. Xəzər dənizinin sahilində olmaq və sadəcə, Bakıda yaşamaq həqiqətən də inanılmazdır. İlk dəfədir buraya səfər edirəm, amma şəhərin inkişaf səviyyəsi məni çox heyran etdi”.

# Heydər Əliyev-100

# HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRLƏRİ



***Heydər Əliyev Azərbaycan üçün dahi bir insan ömrünə sığmayan işlər görmüşdü: mikrorayonlar salmış, saraylar tikdirmiş, yüzlərlə yeni zavod və sənaye müəssisələri tikdirmiş, gəncləri qabaqcıl universitetlərə göndərmiş və bunun kimi. Bu işlərin əksəriyyəti maddi və mənəvi dəyərlərimizi zənginləşdirmişdir. Ulu öndər bu işlərin bir neçəsini qürurla özünün şah əsəri saymışdır. Mİli əhəmiyyətinə görə bu işləri sıraya düzsək, əlbəttə, müstəqil dövlət quruculuğu birinci yerdə durar.***

## DÖVLƏT QURUCULUĞU

İnsanlar düzgün qərarlar qəbul etməklə şəxsiyyətə, dövlətlər düzgün qərarlar qəbul etməklə qüdrətli dövlətə çevrilir.

Heydər Əliyev 2-ci dəfə hakimiyyətə gələndə jurnalistlərin sual selinə cavab verməli olurdu. Jurnalistləri isə böhranlar içərisində boğulan Azərbaycanı bu vəziyyətdən necə xilas edəcəyini Heydər Əliyevdən soruşurdular. Heydər Əliyev hər suala cavab verməklə bərabər, ümumiləşmiş və müdrik cavabları da var idi:

a) "Biz nazik sap üstündə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

b) "Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq. Bunu elə yaratmalıyıq ki, bu, daim yaşasın. Bunu heç bir qüvvə heç vaxt, heç bir yana əyə bilməsin. Bunun üçün də hər kəs, bu müstəqilliyi qorumaq üçün sadiq olmalıdır. Və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır".

Tarixi postulatların birində deyilir ki, tarixi unudanlar onu təkrar yaşayırlar. İkinci demokratik Azərbaycan dövləti təzədən yıxılmaması üçün bir neçə şərt ödənilməlidir:

- müstəqilliyə sadiq olmaq;
- ağılla və məharətlə hərəkət etmək;
- milli və dövlət mənafeyini şəxsi mənafedən üstün tutmaq;

Bu fikirlər ziyalılar tərəfindən bəyənilirdi və özlərini Heydər Əliyev partiyasına tərəf çevirirdilər. Ulu öndər ziyalılardan mövqelərini bildirməyi istəyirdi. BDU professoru Şamil Qurbanov: "Bilməm mövlam nə edəcək, bilirəm ki, nə etsə gözəl edəcək" məqalə ilə mövqeyini tez bildirdi. Sonra da Heydər Əliyev siyasətinə parlamentdə xidmət etdi.



**Prof. Şahlar Əsgərov, YAP Veteranlar Şurasının üzvü, əməkdar elm xadimi**

Müstəqilliyimizin 10 illiyini "Gülüstan" sarayında bayram edəndə ulu öndər cavan dövlətimizin on illik tarixinə belə nəzər saldı.

"Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildən böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur;

Ulu öndər 6 ilə müasir Azərbaycan dövlətini qurdu. Bu səbəbdən də deyirik: Heydər Əliyev "Müasir Azərbaycan dövlətinin banisi və qurucusudur". Bayram tədbirində Azərbaycan Prezidenti Heydər Əliyev bəyan etdi:

"Mən tam əminəm ki, biz on il böyük yol keçərək, ağır yol keçərək müstəqilliyimizi qoruyub saxlaya bildiksə, onu möhkəmləndirə bildiksə, Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət yarada bildiksə, bu dövlətin bütün təsisatlarını yarada bildiksə, demək, Azərbaycanın gələcəyi üçün çox əsaslı, çox möhkəm bir təməl qoymuşuq. Biz öz üzərimizə düşən missiyanın birinci, ən çətin hissəsini yerinə yetirmişik".

Prezident öz missiyasının birinci hissəsi yerinə yetirdiyini dedi. Qaldı ikinci hissə, hələ Qarabağ erməni işğalı altındadır. Allahın hökmü ilə Qarabağı işğaldan oğul Əliyev azad edəcəkdir və etdi də. Müzəffər Ali Baş komandan dünya eşitsin deyə gur səslə bəyan etdi: Qarabağ Azərbaycandır! Dünya onu Qarabağın fatehi kimi qəbul edir.

Prezident Heydər Əliyev çıxışlarınında deyərdi ki, müstəqilliyi qazanmaq asandır, ancaq onu qorumaq çətindir. Bu cətin işin öhdəsindən gəlmək üçün hər kəsdən qeyrət tələb olunur. Bu niyyətlə dövlətimizin banisi deyirdi:

"Əgər kimsə Azərbaycan dövlətinə xəyanət edəcəksə, mən son damla qanıma qədər mübarizə aparacam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir prezident kimi də durmuşam, duracam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram".

YAP İH iclaslarının birində Sirus Təbrizli dedi ki, sovetlərdə ağıl olsaydı, Andropovdan sonra gərək sizi rəhbər seçəydilər. Bu fikrə Heydər Əliyevin reaksiyası cəld oldu:

"... yenə də Sirus Təbrizliyə müraciət edirəm. Mən o vaxt bunu, yəni o hökumətin başında olmağımı arzu etmirdim. Arzu edənlər çox idi. Mənim arzum ancaq və ancaq öz xalqıma xidmət etməkdən ibarət olmuşdur və qəlbim həmişə bununla yaşamışdır. Ona görə də əgər indi Sirus Təbrizli hirslənirsə ki, bu olsaydı yaxşı olardı, ya bu yaxşıdır, - mən deyirəm ki, mən müstəqil Azərbaycana rəhbərlik etməyi, prezident olmağı dünyada heç bir şeylə dəyişə bilmərəm".

## YAP-ın YARADILMASI

YAP-ın yaradılması prosesi əsasən 1992-ci ildə "Əlincə" cəmiyyətində və BDU-da prof. Murtuz Ələsgərovun kabinetində gedirdi. Yüzlərlə BDU müəllimlərindən cəmi 20 -30 nəfəri bu prosesi dəstəklədilər. Onları minnətdarlıqla xatırlayaq: Murtuz Ələsgərov, Səfiyar Musayev, Sabir Hacıyev, Əli Əhmədov, Şahlar Əsgərov, Tofiq Hüseynov, Əli Nağıyev, Məzdək Hüseynov, İsgəndər Quliyev və digərləri. Rəhmətə gedənlərə Allah rəhmət eləsin, qalanlarına cansağlığı arzulayaq. Bununla bərabər BDU-da əks proseslər də gedirdi. Sonradan bu prosesin tərəfdarlarının çoxu YAP-a üzv oldular.

YAP Naxçıvan təsis konfransından I qurultayına qədər 7 il yol gəldi. Partiyanın birinci qurultayında Azərbaycan Prezidenti və YAP sədri Heydər Əliyev geniş məruzə ilə çıxış etdi. Gedilən yolu, görülmüş işləri təhlil etdi və partiyanın durumunu belə qiymətləndirdi:

"Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır".

Partiyaya şəxsi mənafe baxımdan gələnlər də var idi. Zaman onları saf- çürük etdi. Bu məqamla bağlı partiyamızın sədri belə dedi:

"... kim Yeni Azərbaycan Partiyasına hansısa şəxsi məqsəd, təmənna, hansısa konyuktur məqsədlər üçün gəlmişdisə, onlar partiyadan kənarlaşdılar. Əgər bu gün beləbləri varsa, mən güman edirəm, dərk etməlidirlər ki, onların yolu partiyanın yolu ilə düz gəlmir".

Partiya Sədri YAP-ın yaranması yolunda cəfakeşlik edənləri də yaddan çıxarmadı: "Yeni Azərbaycan Partiyasının veteranları, bizim alimlərimiz, çox yüksək səviyyəli ziyalılarımız Yeni Azərbaycan Partiyasının qızıl fondudur". Heydər Əliyev özünün partiyaya mənsubiyyətini bu cümlələrlə ifadə etdi: "Məni sevindirən budur ki, dediyim o ağır şəraitdə Naxçıvanda bizim keçirdiyimiz konfrans partiyanın bu qədər böyük inkişaf yolunu təmin etdi və partiya bu gün belə gözəl, möhtəşəm sarayda iki gündür öz qurultayını keçirir. Mən sizinlə bərabər fəxr edirəm ki, Yeni Azərbaycan Partiyasının üzvüyəm və Yeni Azərbaycan Partiyasının sədriyəm. Heydər Əliyev YAP-ın yaradılmasını özünü ikinci şah əsəri hesab etmişdir.

## TƏHSİL

Heydər Əliyev təhsil sahəsinə xüsusi diqqət yetirirdi. Təhsilin başqa sahələrdən fərqləndirilməsini istəyirdi. Təhsil sistemi, təhsil ocaqları, müəllim, tərbiyə, alim, universitetlər haqda 150-dən çox dəyərli kəlamları vardır. Misal üçün bir kəlamında uşaqların, gənclərin təhsili haqda deyir: "Dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, ali məktəblərə daxil olan gənclər, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün təhsil, bilik almalıdırlar". Heydər Əliyev irsin nə qədər zəngin və dərin olduğunu başa düşmək niyyəti ilə bir misal çəkmək istəyirəm. Sovetlər zamanı ali məktəblərə sərt qəbul imtahanı iki səbəbdən aparılırdı: a) birinci səbəb iqtisadi idi. Dövlətin bütün gənclərə təhsil verməyə gücü çatmırdı. Ali məktəblərdə hər 100 gəncdən cəmi 33 nəfəri təhsil alırdı; b) ikinci səbəb siyasi idi. Moskva istəmirdi ki, milli respublikalarda kütlə lazım olandan çox savadlı olsun. Çünki ona orta savadlı gənclər daha çox lazım idi ki, zavodlarda işlətsin və ya tarlalarda pambıq yığdırsın. Ulu öndər bu antimilli sui-qəsd nəzəriyyəsinin çəpərlərini aşmaq üçün hər il 1000-lərlə gənci SSRİ -nin qabaqcıl universitetlərinə göndərilməsini siyasi yolla həll etdi. Milli mənafe baxımından bu, çox böyük uğur idi. Və bu işi özünün növbəti şah əsəri sayırdı. Ulu öndər Bakı metrosunu da özünün şah əsəri hesab edirdi: "Mən 1969-cu ildə rəhbərliyə gələndə Bakı metrosunun uzunluğu 9,6 km idi. Mən Moskvaya gedəndə metronun uzunluğu 31,6 km oldu". "Heydər Əliyev İli"ndə dahi şəxsiyyət Heydər Əliyevin şah əsərlərindən söhbət açdıq. Qismət olarsa, başqa bir zamanda, başqa bir məkanda Onun irsindən, fəlsəfəsindən və aforizmlərindən daha geniş söz açarıq. Səmimiyyətlə, minnətdarlıq hissi ilə dahi şəxsiyyət Heydər Əliyevi minnətdarlıqla yad edirik. Mənim gənclərə tövsiyəm: ulu öndərin aforizmlərini öyrənsəniz, tez kamilləşərsiniz. Heydər Əliyevin daxili aləmi, fəlsəfəsi onun kəlamlarında toplanıbdır. Dahilər ölmürlər, dünyalarını dəyişirlər.

# Ermənistanın vəziyyəti: "pat", yoxsa "parter"?

*Azərbaycan-Ermənistan sərhəd keçid məntəqəsi ətrafında baş verən siyasi qarışıqlıq fonunda Vaşinqtonda iki ölkənin XİN başçıları arasında keçirilən görüş mayın 4-də başa çatdı. Nəticə nə oldu, tərəflər yolun heç olmasa yarısına qədər gedə bildilərmi? ABŞ rəsmiləri irəliləyişin olduğu barədə ilkin açıqlama veriblər, Moskva və Parisin münasibəti isə hələlik ortada yoxdur. Ermənistan da müəmmalı, dolaşıq danışır. Azərbaycan Prezidenti İlham Əliyev isə bu görüşdən möcüzə gözləmədiyini dolayısı ilə bildirib. Şuşada keçirilən görüşdəki çıxışında isə konkret olaraq mövqe bildirdi. Nə qədər ki, Minsk qrupunun həmsədr ölkələri hələ də prosesdə iştirak etmək niyyətlərindən vaz keçməyiblər, danışıqların perspektivindən danışmağa dəyməz. Yəni, danışıqlar iki tərəf – Ermənistan və Azərbaycan arasında, heç bir vasitəçi olmadan aparılsa nəticə gözləməyə dəyər.*



Bəli, dünya birliyi iki ölkə arasında sülh yaratmaq, həmcinin Cənubi Qafqazda təhlükəsizliyi bərqərar etmək istəyirsə kənar qüvvələr prosesdən uzaqlaşdırmalıdır. Bu, həm Rusiyaya, həm Avropaya, həm də ABŞ-a aiddir. Fakt budur ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmamasına səbəb kənar qüvvələrdir. Onların regional maraqları sülhü əngəlləyir. Halbuki, keçmişdə, "Dağlıq Qarabağ münaqişəsi"nin ilk illərində, hətta I Qarabağ münaqişəsinin ən qızğın vaxtlarında belə hərbi-siyasi vəziyyət indiki kimi qəliz deyildi. Yenə təkrar etməli olacağıq ki, mövcud durumu, sülhün əngəllənməsini təmin edən keçmiş Minsk qrupunun həmsədr ölkələridir. Qeyd edək ki, bu qurumun regionda sülhə mane olmaq, müharibəni qızışdırmaq üçün təsis edildiyi haqda deyilənlər doğru imiş...

Əgər belə deyilsə, onda beynəlxalq münasibətlər sisteminin ana xəttini təşkil edən ölkələrin ərazi bütövlüyünün tanınması və ona hörmət prinsipi dünyanın 3 güclü dövləti sayılan ABŞ, Rusiya və Fransa tərəfindən niyə pozulsun, yaxud bu prinsipləri pozan cırtdan Ermənistana "gözün üstə qaşın var" iradını niyə bildirilməsin? Deməli hər 3 "supergüc yalnız öz maraqlarını güdürmüşlər, onların dərdi münaqişəni həll etmək olmayıb. Hər 3 ölkə dünyanın silah bazarında hegemonluq edirlər. Silahı isə yalnız döyüşlərdə istifadə etmək olar, döyüşlər üçün də müharibələr lazımdır. Adıçəkilən iki ölkənin – Fransa və Rusiyanın ərazisində 78 ildən artıqdır ki, silah səsi eşidilmir. Amerikada isə nə vaxt müharibənin olduğunu çoxları unudub. İri, imperialist adəti olan bu dövlətlər bu günə qədər müharibəni özlərindən kənara atmağı bacarıblar. Hətta öz aralarındakı fikir ayrılıqlarını, haqq-hesabı çözmək üçün də başqa ölkələrin ərazilərini meydan kimi seçiblər. Cənubi Qafqaz da həmin meydanlardan biridir.

Bu gün hər 3 ölkə Bakı-İrəvan münasibətlərinin tənzimlənməsində vasitəçiliyə səy göstərirlər. Belə burasındadır ki, 28 il Minsk qrupunun həmsədrləri kimi münaqişəni həll edə bilməyən bu üçlük indi də başqa ad altında, fərqli yöntəmlə problemi guya həll etmək istəyirlər. Özləri də bilir ki, birinin qərarı, birinin vasitəçiliyi ilə əldə edilən razılaşma, yaxud sülh müqaviləsi o birilərinin müdaxiləsindən sonra ən yaxşı halda kağız üzərində qalacaq. Hələ növbəti toqquşmalardan söhbət açmırıq. Vəziyyəti dramatikləşdirən həm də Ermənistan ənənəvi oyunbazlığıdır. Müstəqil fikri, xalqını uzun müharibə ab-havasından çıxarmaq istəyi olmayan Ermənistan rəhbərləri hər üç tərəfə "işləməklə" "peşka" obrazını məharətlə oynamağı bacarır. Ermənistan rəhbərləri özlərinə tam sərfəli heç bir normallaşma modeli görmürlər, yaxud görmək istəmirlər. Hər hansı bir modeli açıq və ya diplomatik üsullarla sabotaj edirlər. Paşinyan hakimiyyəti indiki "status- kvo"nun uzadılmasında maraqlıdır. Baş nazir qarışıq, erməni siyasətçilərinin hərəkətlərindən, söylədiklərindən də görünür ki, onlar revanş hissi ilə yaşayırlar, yeni müharibəyə hazırlıq gedir.





## Sülhün açarı kimdədir?

Mayın 1-dən Vaşinqtonda davam edən Bakı-İrəvan danışıqlarından sonra Moskvada, Brüsseldə hansısa görüş təşkil olunacaqsa, deməli dediklərimizdə bir yalan yoxdur. Fransa və Rusiya da münaqişənin həllini istəyirsə, Vaşinqton görüşündə əldə edilən nəticəyə qane olub məsələni yekunlaşdırmaq olar. Amma, məsələ başqadır, yəni, "yorğan məsələsi"... Yoxsa ABŞ rəsmiləri bilməmiş deyillər ki, nə qədər ki, Rusiya Ermənistandadır, Qarabağda sülhməramlı missiya yerinə yetirir, əldə edilən razılaşma keçərsiz olacaq. ABŞ-Rusiya münasibətlərinin indiki halını göz önünə gətirmək kifayətdir ki, Ermənistan-Azərbaycan danışıqlarında əldə olunan azacıq irəliləyişin də aqibətini hesablayasan. Bir sözlə, Prezident İlham Əliyevin dediyi kimi: "Düşünürəm ki, razılığa gəlmək üçün ən yaxşı yol Azərbaycanla Ermənistan arasında, heç bir vasitəçi, köməkçi və ya pozucu olmadan birbaşa danışıqlardır. Keçmiş Minsk qrupu həmsədrlərinin danışıqlarda yenidən iştirakla bağlı cəhdlərinin şahidi oluruq. "Həmsədr ölkələr" kömək etmək istəyirlərsə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına yardım edə bilərlər. Ermənistanla Azərbaycan nazirləri arasında danışıqların növbəti raundunun bu ay Rusiyada keçirilməsi nəzərdə tutulub".

Rəsmi Vaşinqton da Azərbaycan və Ermənistan arasında birbaşa dialoqu davamlı sülhə nail olmaq üçün açar sayır. Bunu ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel də brifinqdə deyib. O qeyd edib ki, Birləşmiş Ştatlar Bakı və İrəvan arasında birbaşa dialoqun mümkünlüyünə inanır. V.Patel ABŞ dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında keçirilən görüşlər barədə suala cavab olaraq əlavə məlumatı olmadığını bildirib: "Biz bir daha Cənubi Qafqaz regionunda sülhsevər gələcəyin təşviqinə sadiq qalırıq".



Ermənistan mətbuatının məsələyə yanaşması da maraqlıdır. “Hraparak” qəzeti yazıb ki, Vaşinqtonda Ermənistan-Azərbaycan xarici işlər nazirlərinin yekun görüşündə ABŞ dövlət katibi Entoni Blinken də iştirak edib. Danışıqlarda Azərbaycan eksklavlar məsələsinin həllini tələb edir. Bildirilib ki, həm Ermənistan, həm də Azərbaycanı münasibətlərin normallaşması haqqında razılaşmanı imzalamağa məcbur edirlər. Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb, əvəzində oradakı ermənilər üçün təhlükəsizlik zəmanəti istəyib. Azərbaycan tərəfi anklav və eksklavların həllini tələb edib, lakin bu məsələ də həllini tapmayıb.

## Azərbaycana qarşı açıq-aşkar böyük ədalətsizlik

Azərbaycana qarşı açıq-aşkar böyük ədalətsizlik var və müəyyən mənada keçmiş sovet ölkələrinin ərazi bütövlüyü məsələlərinə metodoloji yanaşmada yenidən ayırıcı xətt çəkmək cəhdi mövcuddur. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən konfransda ABŞ-ın Hərbi Dəniz Donanması Ali Məktəbinin professoru Brenda Şaferin “ABŞ Ukrayna və Gürcüstanın ərazi bütövlüyünü təşviq etməlidir və Ermənistanla Azərbaycan arasında sülhü təşviq etməlidir. Bu sözlər açıq-aşkar Sizin ərazi bütövlüyünüzü təşviq etmir. Bunun niyə belə olduğunu izah edin” sualına cavabında söyləyib.

Dövlətimizin başçısı deyib: “Biz hər zaman ABŞ prezidentlərinin rəsmi bəyanatlarında, Gürcüstan, Moldova və Ukrayna liderlərinə məktublarında ərazi bütövlüyünə dəstəklə bağlı çox açıq sözlər eşitmişik. Azərbaycana gəldikdə isə onlar sanki bunu söyləyirlər, lakin, eyni zamanda, sülh yolu ilə nizamlanma. İşğal dövründə bu, daha ədalətsiz və haqsız idi. Əlbəttə ki, biz buna daha çox həssas yanaşırdıq. İndi biz daha az həssasıq, çünki biz beynəlxalq ictimaiyyətin, BMT Təhlükəsizlik Şurası daimi üzvlərinin görməli olduğu işi görmüşük, Təhlükəsizlik Şurasının qətnamələrini icra etmişik. Ona görə də buna çox diqqət yetirmirik”.

## Zəngəzur dəhlizinin qlobal əhəmiyyəti

Zəngəzur dəhlizinin böyük potensialı var. Çin, Qırğızıstan və Özbəkistan arasında dəmiryolu əlaqəsi yaradılır və Zəngəzur dəhlizi həmin marşrutun davamı, “Bir kəmər, bir yol” layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər. Bu sözləri də Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında söyləyib.

Dövlətimizin başçısı qeyd edib ki, Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti var. Çünki biz daha böyük həcmdə yüklərin olmasını gözləyirik və marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır.

## Əgər Ermənistan konstruktiv olmasa...

“Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar”. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq konfransda çıxışında deyib.

“Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - deyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik”, - deyən dövlətimizin başçısı əlavə edib ki, biz onlara (Ermənistana) sülh sazişinin layihə variantının dörd nüsxəsini, dörd yeni variantını göndərdik. Onlar öz qeydlərini bildirdilər. Biz onların sonuncu şərhini qırx gündən çoxdur ki, gözləyirdik. Biz bu şərhi, sadəcə, bir həftə bundan əvvəl aldıq. Bu da Vaşinqtondakı görüşdən əvvəl idi, çünki onlar onsuz da Vaşinqtondakı görüşün mənasız olduğunu başa düşdülər.

Ermənistanın şərhində Azərbaycana qarşı ərazi iddialarının olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: “Bizim bu şərhlərdə gördüklərimiz yenə də Azərbaycana qarşı ərazi iddialarıdır. ABŞ və Avropa İttifaqının rəsmiləri ilə çoxsaylı danışıqlarımda Ermənistana və ABŞ-a tamamilə aydın idi ki, burada ikiistiqamətli yanaşma olmalıdır. Birincisi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, ikincisi, Azərbaycan hökuməti və Qarabağın erməni icması ilə danışıqlar. Buna görə də sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır”.



Prezident Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli Bəyanatını şərh edərkən bildirib ki, İkinci Qarabağ müharibəsi bitəndə heç də çoxu sonra nəyin baş verəcəyini bilmirdi: “Çünki üçtərəfli Bəyanat atəşkəs razılaşması deyil. O, həmçinin sülh sazişi də deyil. Beləliklə, sonra nəyin baş verəcəyi böyük sual işarəsi idi. Biz təşəbbüs göstərdik, biz inteqrasiya olunmuş Cənub Qafqaz, regional əməkdaşlıq, münasibətlərin normallaşması üçün gələcəyə baxışı irəli sürdük. Buna görə biz sülh danışıqlarına başlamaq təşəbbüsünü irəli sürdük. Bütün istiqamətlərdən səs çıxmadı. Biz müəyyən vaxt gözlədikdən sonra tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun gələn beş prinsipi irəli sürdük. Ermənistan rəsmən ya bunları rədd etməli idi, ya da onları qəbul etməli idi. Rədd etsəydilər, bu, yenə də onların qeyri-konstruktiv olduğunu göstərəcəkdi, çünki bu prinsiplərdə beynəlxalq hüquqa zidd olan heç nə yox idi. Onların qəbul edilməsi isə psixoloji nöqteyi-nəzərdən, normal davranış sərgiləməyə razı olmaq nöqteyi-nəzərindən yəqin ki, onlar üçün çətin idi. Sonra isə bizdə Ermənistanın ciddi danışıqlarda iştirak etmək istəməməsi səbəbindən yenə də uzun fasilə oldu”.

Prezident İlham Əliyev həmçinin diqqətə çatdırıb ki, sülh sazişi haqqında danışıqların başlanılmasını təklif edən də Azərbaycan olub: “Ermənistan münaqişənin sülh yolu ilə həllini istəmirdi. Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər. Düşünürdülər ki, işğalı legitimləşdirə biləcəklər.

Hesab edirdilər ki, onların beynəlxalq sponsorları həmişə onların yanında olacaq və onlar üçün mübarizə aparacaqlar. Lakin bu, səhv hesablanmış bir addım idi. Onlar yanlış idilər”.

Dövlətimizin başçısı qeyd edib ki, nəticə nöqteyi-nəzərdən 28 il ərzində Minsk qrupu heç bir nəticə əldə edə bilməyib: “Bunun əsas səbəbi isə o idi ki, Ermənistan torpaqları geri qaytarmaq istəmirdi. İşğal dövründə “Minsk qrupu” Azərbaycanda çox populyar deyildi. İndi isə o artıq fəaliyyətini dayandırdığı üçün biz yəqin ki, bu məsələni dərindən müzakirə etməməliyik. Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi”.

## Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq

“Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yəqin ki, yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər”. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq konfransda çıxışında bildirib.

Bəs sülh olmasa nə baş verər? Azərbaycanın mövqeyi bəllidir. Prezident sülhün hər kəsə lazım olduğunu deyib. Əgər Ermənistan ayrı yol seçərsə, o zaman Azərbaycan məqsədlərinə nail ola bilmək üçün istənilən addımları ata bilər. Ermənilər həmişə hay-haray salırlar ki, təyziq edilməsin. Ermənilər tarixən belə hiyləgər addımlar atıblar. Guya Nikolu devirsələr nə olacaq, devirməsələr nə olacaq?! Bizim üçün nə fərqi var ki?! O, sülh imzalanmasını qəbul etmirsə, o biri də qəbul etməyəcək. Amma onlar anlamırlar ki, sülh Ermənistan üçün lazımdır. Anlasalar, ambisiyalarından çoxdan əl çəkərdilər.

“Azərbaycanla sülh müqaviləsi imzalansa, çox sevinərəm”. Bunu Ermənistan Baş naziri Nikol Paşinyan “Ermənistan” fraksiyasından olan deputat Qeqam Manukyanın sualına cavabında deyib. Əlavə edib ki, masada Ermənistan-Azərbaycan sülh müqaviləsi ilə bağlı təkliflər sənədi var. Mən Xarici İşlər Nazirliyinə tapşırdım ki, sizi Azərbaycanın və Ermənistanın təklifləri ilə, bu sənədlə tanış etsin, siz istəmədiniz.

Eyni zamanda deputat Praqada keçirilən görüş formatında, Vaşinqtonda müzakirə olunan sənəd əsasında iyunun 1-də Kişinyovda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının mümkün olub-olmadığını soruşub: “Belə olsaydı, çox sevinərəm. Bunlar pis xəbər deyil, yaxşı xəbərlərdir. Danışıqlar davam etdiyi üçün deyəcəyim hər hansı müsbət və ya mənfi şərh onların gedişatına təsir edəcək. Mən Vaşinqtona səfər edən rəsmilərə dedim ki, sərbəst danışıqlar aparsınlar və ictimaiyyətə açıqlanan fikirlərimiz çərçivəsində vurğuladım – siz bilməlisiniz ki, Azərbaycanla danışıqlar apardığınız sənədi mən imzalayacam”.

Göründüyü kimi, Ermənistan rəhbərliyi yenə üçbaşlı oyun oynamaq istəyir. Politoloq Suren Surenyants.ın dediyi kimi, Paşinyan istənilən sənədi imzalamamaq üçün hər şey edəcək. Çünki o da bilir ki, danışıqların Moskva, Vaşinqton və ya Brüsseldə aparılmasından asılı olmayaraq, istənilən sənəd Ermənistanın maraqlarına uyğun ola bilməz. Paşinyan anlayır ki, Ermənistan-Azərbaycan arasında istənilən sənədi imzaladıqdan sonra daxili siyasi problemlərlə üzləşəcək. Hətta ölkədə hakimiyyət dəyişikliyinə səbəb olacaq çaxnaşma yaşana bilər. Başa düşmək lazımdır ki, Paşinyanın resursları hədsiz deyil. Sonda o, geosiyasi mərkəzlər arasında seçim etmək məcburiyyətində qalacaq. Erməni hakimiyyəti özünü çıxılmaz vəziyyətə salıb”.

Yekunda onu deyə bilərik ki, Ermənistan nə müharibə, nə sülh arasında qalıb. Hər ikisinə yaxınlaşmaq Paşinyanın sonunu gətirə bilər. Baş nazir də bunu bilir. Amma vaxt gözləmir, Azərbaycanın səbri də tükənməz deyil, Ermənistanı sülhə məcburetmənin vaxtı tezləşə bilər. Onda gec olacaq.

**V.VƏLİYEV**



# Rusiyalı politoloqlar: “Sülh olmursa, problemi sərt şəkildə həll etmək lazımdır”

*Azərbaycan Laçın yolunda post qurmaqda Qarabağdakı ermənilərə silah daşınmasını və təbii sərvətlərin ölkədən oğurlanmasını əngəllədi”*



***Laçın yolunun əvvəlində Azərbaycan sərhəd-keçid məntəqəsinin yerləşdirilməsi Ermənistan tərəfinin sülh yolu ilə nizamlanmanı pozmağa yönəlmiş təxribatlara cavabıdır. İrəvan, təbii ki, belə düşünmür- qışqırır və hiddətlənir, Bakıya təzyiq etmək üçün öz ağalarından istifadə edir. Fransa Xarici İşlər Nazirliyi artıq Azərbaycan tərəfinin nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasını çox xoşagəlməz şəkildə şərh edib. Amma bütün bunlar gözlənilən idi.***

Bu qəbildən olan bəyanatları gözləyərək, eyni zamanda “özbaşınalığına” görə Azərbaycana qarşı indiki və gələcək bütün hücumlara cavab verən Xarici İşlər Nazirliyi ölkəmizin rəsmi mövqeyini açıq şəkildə ortaya qoyub: “Azərbaycanın atdığı addımı qanunidir və onun suveren ərazisindəki sərhəd beynəlxalq hüququn bütün prinsip və normalarına uyğundur. Məlumdur ki, erməni tərəfi Praqa və Soçidə görüşlər nəticəsində tez-tez istinad etdiyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan edib. Buna əsaslanaraq, Ermənistan Azərbaycanın öz ərazisinə giriş-çıxışa nəzarəti təmin etmək hüququnu qəbul etməli və ona hörmət etməlidir. Rusiyalı politoloqlar belə düşünür.

“Vestnik Kavkaza” agentliyinin baş direktorunun müavini, rusiyalı politoloq Andrey Petrov “Caliber” analitik mərkəzinə müsahibəsində deyib ki, bu Cənubi Qafqaz üçün həqiqətən tarixi hadisədir- çünki Azərbaycan nəzarətsizliyə, qadağan olunmuş malların idxalı və qeyri-qanuni şəxslərin Qarabağ iqtisadi ərazisinə daxil olmasına son qoyub.

“Əvvəlki iki il yarımda biz şahidi olduq ki, Rusiya sülhməramlıları Moskva ilə Bakı arasında hardasa razılaşdırılmış o qeyri-rəsmi mandat çərçivəsində sərhəddə yükləri süzgəcdən keçirməyib, sadəcə onları Xankəndiyə müşayiət ediblər. Və məlum oldu ki, Ermənistan iki il yarım ərzində, belə demək mümkünsə, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Sazişdən sui-istifadə etməklə məşğul olub və Azərbaycanın Ermənistanla Xankəndi arasında maneəsiz əlaqəni təmin etməyi öhdəsinə götürüb. Və məlum oldu ki, Ermənistan təkcə humanitar xarakterli yüklərin maneəsiz daşınmasını və üçtərəfli Bəyanatda müstəsna olaraq müzakirə olunan təkcə Qarabağ sakinlərinin deyil, həm də silah-sursat, mina və yaraqlılar üçün idxal olunan və həmin müqavilə çərçivəsində mülki şəxslərin qiyafəsində “idxal olunan” hərbçilərin daşınmasını tələb edib”,- politoloq vurğulayıb.

Ekspertin sözlərinə görə, Ermənistan daha bunu edə bilməyəcək, çünki Azərbaycan özü Ermənistandan ərazisinə daxil olan hər bir avtomobili filtrdən keçirib yoxlayacaq.

“Bundan əvvəl biz Azərbaycan vətəndaş cəmiyyətinin Qarabağa silah və yaraqlıların idxalına son qoymaq üçün diqqətəlayiq cəhdini gördük”, - rusiyalı politoloq xatırladıb. - Bu, öz təşkilatçılığı və məsuliyyəti ilə Ermənistan-Azərbaycan nizamlanmasında bir daşla bir neçə quş vuran ekoloji fəalların etiraz aksiyasıdır: birincisi, Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz hasilatı dayandırılıb, çünki filiz artıq avtomobillərlə Ermənistana daşınmır, ikincisi, Laçın yolu ilə silah və yaraqlıların daşınması qeyri-mümkün oldu, çünki bu fakt da eko-aktivlər tərəfindən dərhal qeydə alınacaqdı. Ancaq bu il gördüyümüz kimi, İrəvan təslim olmadı və ekoloji fəalların aksiyası ətrafında torpaq yollarla silah, mina və yaraqlıların necə daşınacağının yolunu axtardı. Bundan sonra bəlli oldu ki, daha sərt davranmaq, yeri gəlmişkən, Azərbaycanın çoxdan danışdığı Laçın yolunda post qoymaq lazımdır.



Ermənistanın indi Azərbaycanın bu nəzarət buraxılış məntəqəsi ilə Üçtərəfli Bəyanatın müddəalarını pozduğundan şikayət etməyə başlaması, əlbəttə ki, əsassız bəyanatdır. Və bunun bir sıra səbəbləri var. Biz ən azı ondan başlamalıyıq ki, 2020-ci ilin dekabr ayından bəri Ermənistan tərəfi Üçtərəfli Bəyanat üzrə üzərinə götürdüyü öhdəliklərin heç birini yerinə yetirməyib. Bu isə Ermənistanın xarici siyasətinin ənənəvi təzahürüdür, o zaman tamamilə heç nə etmir, amma hamıdan bunu tələb edir. Yəni o, Qarabağ iqtisadi rayonundan öz silahlı birləşmələrinin qalıqlarını çıxarmır və öz ərazisində Zəngilan rayonu ilə Naxçıvan arasında maneəsiz nəqliyyat əlaqəsini təmin etmir”,- rusiyalı ekspert qeyd edib.

A.Petrovun fikrincə, hər şey məntiqlidir: əgər Ermənistan bunu etmirsə, o zaman Azərbaycan niyə maneəsiz keçidin təşkili ilə bağlı öhdəliklərini davam etdirməyə borcludur, xüsusən də silah və yaraqlılar xaricdən gətirilirsə: “Tərəflər bununla bağlı razılığa gəlməyiblər- onlar yalnız Qarabağa mülki şəxslərin və humanitar yüklərin keçirilməsi ilə bağlı razılığa gəliblər. Ermənistan isə özünü “axmaq axtarmaq” prinsipi ilə aparır – bir tərəfdaş hər şeyi ehtiyatla yerinə yetirir, digəri isə onun səylərinə qarşı parazitlik edir.

İkinci məqam ondan ibarətdir ki, Azərbaycan öz nəzarət-buraxılış məntəqəsini qurmaqla Üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirir və Ermənistanın işini onun əvəzinə görür– Qarabağa silah və yaraqlıları buraxmır, çünki onlar orada olmamalıdır. Yəni, silahlı birləşmələrin qalıqları tezliklə Azərbaycanı tərk etməli olacaqlar, çünki onların sadəcə olaraq döyüşəcək heç bir şeyləri olmayacaq. Üçüncüsü, Azərbaycan keçid məntəqəsini quraşdırmaqla Üçtərəfli Bəyanatı pozmur, çünki Qarabağa buraxılan hər kəs yenə də ora problemsiz daxil ola bilər. Rusiya sülhməramlıları isə əvvəlki kimi Qarabağ ermənilərinin bütün Laçın yolunun uzunluğu boyunca Xankəndinə və geriyə keçidinin təhlükəsizliyini təmin edirlər. Yəni, Azərbaycan keçid məntəqəsi heç nə ilə ziddiyyət təşkil etmir, əksinə, yalnız Üçtərəfli Bəyanatın bəndlərinin yerinə yetirilməsinə kömək edir”.

A.Petrovun fikrincə, keçid məntəqəsinin əsas üstünlüyü ondan ibarətdir ki, Qarabağa silah və yaraqlıları buraxmamaqla, keçid məntəqəsi Ermənistanın bu regionda revanş hazırlığı imkanını əngəlləyir: “Separatçılar öz qüvvələrini artıra, yeni müharibəyə hazırlaşa bilmirlər. Prinsipcə, onların heç vaxt bir növ məhsuldar müharibəyə başlamağa gücü yox idi, amma indi heç bir hərbi əməliyyat keçirməyə cəhd etmək üçün də heç bir əsasları yoxdur, çünki indi məhdud qüvvələri ilə heç bir şey edə bilməzlər. Azərbaycan ordusunun əks hərəkətləri ilə tez aradan qaldırılacaq nəsə edə bilərlər.



Beləliklə, Azərbaycan Həkəri çayı üzərindəki körpüdə cəmi bir kiçik post qurmaqla Qarabağda potensial yeni müharibəni tamamilə ləğv etdi. İndi onun mərkəzi yalnız şərti Azərbaycan-Ermənistan sərhədində mümkündür. Buna uyğun olaraq, Azərbaycan bu sadə hərəkəti ilə dünəndən etibarən Cənubi Qafqazda dinc həyat şansını sözün əsl mənasında kəskin şəkildə artırıb. İndi isə biz sülh danışıqlarının irəliləyəcəyini gözləmək olar, sadəcə ona görə ki, Ermənistanın artıq Qarabağda yeni müharibə hazırlamaq imkanı yoxdur. Ümid edək ki, belədir. Baxmayaraq ki, ermənilər yenə də o klassik “heç nə etməmək” mövqeyini tuta bilərlər, ancaq şikayətlənirlər ki, Azərbaycan düz etmir. Baxmayaraq ki, reallıqda regionda siyasi və strateji qüvvələrin birləşməsi belə görünür: Azərbaycan sülh gündəmini hərəkətə gətirir və təbliğ edir, Ermənistan isə ancaq şikayət edir və yalvarır. Deməli, görünür, belə bir alqoritmdə Cənubi Qafqazda proseslər gələcəkdə inkişaf edəcək”.

Bu fikirləri digər rusiyalı politoloq- Rusiya Elmlər Akademiyasının Çin və Müasir Asiya İnstitutunun elmi işçisi, “Arxont” jurnalının baş redaktoru, Etnik və Beynəlxalq Araşdırmalar Mərkəzinin prezidenti Anton Bredixin də tam bölüşür. O, əmindir ki, Azərbaycan Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaratmaqla öz dövlət sərhədlərinin suverenliyi və ərazilərinə nəzarətin bərpası istiqamətində daha bir mühüm addım atıb.

“Əslində bu, Bakının Ermənistanın 2020-ci il üçtərəfli sazişlərinə əməl etməməsinə cavabıdır. Sülh müqaviləsi yoxdur, bu o deməkdir ki, məsələni sərt şəkildə həll etmək lazımdır. Ermənistandan müsbət nəticə gözləməyə dəyməz. Əslində heç bunu gözləmək də lazım deyildi”, - ekspert vurğulayıb.

Onun fikrincə, İrəvan danışıqlar prosesini ləngidirdi və buna görə də öz siyasətinin bəhrəsini görür.

“İndi silah tədarükü üçün heç bir imkan yoxdur, yalnız humanitar yüklər keçə biləcək. Bir daha deməyə dəyər: Paşinyanın şərtləri ilə sülh müharibə deməkdir. Qərb kuratorları isə onu buna doğru sövq edirlər”, - deyə A.Bredixin bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# "Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin ən böyük ADIDIR"

***"1993-cü il, 3 oktyabr tarixi Azərbaycan xalqının müdrikliyini təsdiq edən bir tarixdir. Çünki həmin gün milyonlarla insan Ümummilli Lider Heydər Əliyevin Prezident seçilməsi üçün səs verdi, dahi rəhbərə etimad göstərdi və elə Azərbaycanımızın uğurları da məhz bu tarixdən etibarən başladı". Bunu millət vəkili Elşən Musayev "Səs" qəzetinə açıqlamasında deyib.***

Millət vəkili bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın xilaskarıdır: " O olmasaydı Azərbaycan da olmayacaqdı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı xilas etməyin yükünü öz üzərinə o zaman götürdü ki, həmin vaxtlar artıq müstəqilliyimiz tam təhlükədə idi, ölkə qarşıdurma meydanına çevirilmişdi. Bir yandan müharibə, bir yandan "sadval", bir yandan Əlikram, bir yandan daxildəki digər antimilli ünsürlər Azərbaycanı sözün gerçək anlamında didib-parçalayırdılar və bu proses nəticə etibarilə mütləq ciddi fəsadlar-



la müşahidə olunacaqdı. Amma Ulu Öndər Heydər Əliyev imkan vermədi ki, həmin ünsürlər və Azərbaycanın düşmənləri istəklərinə nail olsunlar. Ümummilli Lider Heydər Əliyev xaosun qarşısını aldı. Ulu Öndər Heydər Əliyev dövlət qurdu. Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanı bütün təqiblərdən, təsirlərdən, qara buludlardan qorudu. Ulu Öndər Heydər Əliyev bizlərin xoşbəxt gələcəyi üçün, dövlətimizin dünya arenasında söz sahibi olması üçün, Azərbaycanın maraqlarının və haqqının müdafiəsi üçün əlindən gələn hər şeyi etdi. Müasir Azərbaycan həqiqətən onun əsəridir. Bu böyük ad, bu böyük şəxsiyyət Azərbaycanda sabitliyi yaradıb, dövlətçiliyin möhkəmlənməsinin ən böyük səbəbkarı olub, ölkədə demokratiyanı təmin edib və Azərbaycanı inkişafa doğru aparıb.

Bu gün ölkəmizdə gözəl görünən nə varsa - hər biri Ulu Öndər Heydər Əliyevin çəkdiyi əziyyətlərin nəticəsidir. Biz yaxşı xatırlayırıq ki, müəyyən dövrə qədər Azərbaycanın büdcəsi, xarici diplomatiyası hansı səviyyədə idi. Ölkəmiz həqiqətən də siyasi və iqtisadi böhranın məngənəsində boğulurdu və bütün bu problemlər Ümummilli Lider hakimiyyətə gəldikdən sonra öz həllini tapdı. Ulu Öndər Heydər Əliyevin yürütdüyü məqsədyönlü siyasət, onun əsas priotet kimi önə çəkdiyi milli strategiya və ideologiya xalqı nicata, rifaha, gözəl gələcəyə doğru apardı. Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin ən böyük ADIDIR, Azərbaycanın bu günə qədər yetişdirdiyi ən böyük şəxsiyyətdir. Ulu Öndərin ruhu şad olsun. Nur içində yatsın. Zatən o müqəddəs ruhun şad olduğuna hər birimiz əminik. Çünki onun ən böyük arzusu reallaşıb, doğma Qarabağımız işğaldan azad olub".

***GÜLYANƏ***

# "Ermənistan üçün ən yaxşı yol Azərbaycanın uzatdığı sülh əlini sıxmaqdır"

***"Şuşa şəhərində keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması, keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beyxəlxalq konfrans zamanı möhtərəm Prezident İlham Əliyev bir çox sualı cavablandırıb. Bu sualları cavablandırarkən verdiyi açıqlamalar və cavablar çox böyük maraq doğurdu.***





Xüsusilə də Ermənistanla normallaşma məsələlərinə aydınlıq gətirən Azərbaycan Prezidenti Ermənistanı konstruktivliyə dəvət etdi. Konstruktiv addımlar atmayacağı təqdirdə ən çox ziyanın elə Ermənistana dəyəcəyini bildirdi. Çünki Azərbaycan 44 günlük Vətən müharibəsində öz haqqı olanı geri aldı və işğal altındakı torpaqlarını azad etdi. Bu günlərdə işğaldan azad olunmuş torpaqlarda abadlıq-quruculuq işləri həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında MİIli Məclisin deputatı Naqif Həmzəyev deyib.Onun sözlərinə görə, əgər Ermənistan sülhə razılıq verməsə kommunikasiyalar açılmayacaq və ölkə faktiki olaraq blokadada qalacaq: "Nəticə etibarilə yaxın gələcək üçün Ermənistanın inkişaf etməsi ləngiyəcək. Bunun əksinə kommunikasiyalar açılmasa belə Azərbaycanın həm şərqə, həm qərbə, həm də şimal və cənuba müxtəlif vasitələrlə çıxışları var. Azərbaycan nəqliyyat dəhlizlərinin şəbəkəsini yarada bilib. Bu baxımdan biz arzulayırıq ki, Ermənistanla kommunikasiyalar açılsın, Naxçıvana Zəngilandan gedən yol işə düşsün, Zəngəzur koridoru fəaliyyətini bərpa etsin".

Deputat sözlərinə davam edərək bildirib ki, bu, yalnız yol deyil, həm də enerji resurslarının daşına biləcəyi bir dəhliz rolunu oynayır: "Bir daha qeyd edirik ki, bunun üçün Ermənistanın qeydsiz-şərtsiz Azərbaycanın beş baza prinsipi əsasında irəli sürdüyü sülh sazişini qəbul etməsi vacibdir. Ermənistan bu yaradılmış şansı düzgün dəyərləndirməlidir. Əks təqdirdə Ermənistan özü-özünü təcrid edəcək. O, özünü təcrid etməklə yanaşı regionda da inkişafı ləngitmiş olacaq. İstənilən halda artıq Azərbaycana ziyan vurmağa gücü qalmayıb.

Çünki Azərbaycan dövləti və ordusu çox güclüdür. Bütün sərhədboyu ərazilər Azərbaycanın silahlı qüvvələri tərəfindən tam nəzarətdə saxlanılır. Bu baxımdan da Ermənistanın revanşist xəyallar qurması mənasızdır. Ən düzgün yol Azərbaycanın uzatdığı sülh əlini sıxmaq, Azərbaycanla sülh müqaviləsi imzalamaq, sərhədlərin delimitasiya və demarkasiyasını həyata keçirmək və kommunikasiyaların bərpasını təmin etməkdir.

Möhtərəm ölkə başçımızın bu mövzuda səsləndirdiyi fikirlər, çox obyektiv və konstruktivdir. Azərbaycan regionda sülhün daimi və uzunmüddətli olmasını istəyir. Ölkəmiz yeni bir müharibənin başlamasının tərəfdarı deyil. Müharibə istəyən qüvvələr də anlamalıdır ki, Azərbaycanla güc yolu ilə danışmaq mümkün deyil, bunun heç bir mənası yoxdur. Belə addımlar, belə fikirlər yalnız sözügedən qüvvələrin iflasına gətirib çıxara bilər".

***Ləman Əlizadə***



Elçin Bayramlı

# Biz dünyanı faşizmdən 2 dəfə xilas etdik

***60 milyona yaxın insanın həlakı, onlarla ölkənin, on minlərlə şəhər kəndin dağılması ilə müşayiət olunan II Dünya Müharibəsi illəri bəşəriyyət tarixində ən ağır və dəhşətli dövr oldu. Almaniya və İtaliyada meydana gələn faşizm kabusu nəinki bu ölkələrin özünü, bütün bəşəriyyəti təhlükə altına almışdı.***

Bu müharibənin ən böyük hədəfi də SSRİ oldu. 1945-ci il mayın 8-i gecəsi Almaniyanın təslim olması haqda müqavilə imzalandı- bu, əslində, faşist blokunun digər üzvü Yaponiya ilə haqq-hesabın daha sonra çürüdülməsinə baxmayaraq, bəşəriyyət tarixində ən dəhşətli müharibənin sona çatmasını xəbər verirdi.

1941-ci il iyunun 22-də faşist bloku orduları SSRİ-yə qəfil hücuma başladı. Bəşəriyyəti faşizmdən isə elə Sovet İttifaqı xilas etdi. Böyük Vətən Müharibəsi illərində Sovet xalqı dünya tarixində misli görünməmiş qəhrəmanlıq göstərdi. Almaniya işğal etdiyi 6 dövlətin orduları ilə birlikdə SSRİ-yə qəfil hücum etmişdi və hazırlıqsız yaxalanan Qızıl Ordu çətin vəziyyətə düşmüşdü.

Düşməndən canlı qüvvə, silah-sursat və hərbi texnika sayına görə 3 dəfə zəif olan Sovet Ordusu bu müharibədə yüksək mənəvi-ideoloji üstünlük, vətənpərvərlik, döyüşkənlik, xalqın birliyi, arxa cəbhənin ağlagəlməz dərəcədə gərgin zəhməti və nəhayət Stalin başqa olmaqla Sovet generalitetinin düşünülmüş taktikaları sayəsində qalib gəldi.

Bu qələbədə respublikamızın da əvəzedilməz xidmətləri oldu. Azərbaycan xalqının oğul və qızları həm agır döyüşlərin getdiyi cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq nümunələri göstərdilər.

Qısa zamanda respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünü müdafiə dəstəsi təşkil olundu. 1941-1945-ci Azərbaycanın 3,4 milyon əhalisindən 600 mindən çoxu cəbhəyə yollanmışdı ki, onların da yarısı döyüşlərdə həlak oldu. Azərbaycan diviziyaları Qafqazdan Berlinəcən mübariz döyüş yolu keçdilər.

Böyük Vətən Müharibəsində 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bunlardan Həzi Aslanov (2 dəfə), İsrafil Məmmədov, Adil Quliyev, Ziya Bunyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə və başqalarını göstərmək olar.

Bundan başqa, 30 nəfər Şərəf ordeni ilə təltif olundu. Generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazdılar. Ümumilikdə isə, 170 mindən artıq Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edildi.

Respublika iqtisadiyyatı cəbhə üçün işləməyə başladı. Az bir vaxtda Bakı Qızıl Ordunun ən mühüm cəbbəxanalarından birinə çevrildi. Müharibə illərində Bakıda cəbhə üçün 130 növ silah və döyüş sursatı da istehsal olunurdu.

Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin edirdilər. 1941-1945-ci illərdə Azərbaycandan cəbhəyə yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı, paltar və ərzaqla dolu yük qatarları və gəmilər yollanırdı.

1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox- 23,5 millyon ton istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 70%-dən çoxunu təşkil edirdi.

Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, o cümlədən 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanmasında Bakı nefti də mühüm amillərdən biri oldu.

Lakin Azərbaycan xalqının bu müharibədə əsas xidməti cəbhəyə neft verməк deyildi. Yüz minlərlə əsgərimizin öz cəbhədə, milyonlarla insanımızın isə arxa cəbhədə qəhrəmancasına döyüşməsi idi.

75 il sonra Azərbaycan xalqı daha bir Qələbə gününü öz tarixinə qızıl hərflərlə yazdı. Bu dəfə erməni faşizmi üzərində qələbə qazanıldı. SSRİ-nin dağılmasından sonra ərazilərimizi 30 il işğal altında saxlayan Ermənistan ordusunun qısa müddətdə- ay yarım ərzində darmadağın edilməsi və 9 noyabrda düşmənin kapitulyasiyaya imza atması ilə tariximizə yeni bir şanlı səhifə yazıldı. Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz ərazilərini düşməndən azad etdi. İndi bizim iki Qələbə günümüz var- 9 may və 9 noyabr.

# Sağlamlıq turizmi - dayanıqlı inkişaf

*Prezident İlham Əliyev: "Ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir"*



***Azərbaycanın dünyada turizm məkanı kimi tanınması dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğısının nəticəsidir. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də turizmin daha da inkişaf etdirilməsi əksini tapmışdır. Dövlətin siyasətinin məntiqi olaraq, ölkəmizdə təhlükəsizliyin, əmin-amanlığın hökm sürməsi, beynəlxalq tədbirlərin təşkili, qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları və s. turistlərin ölkəmizə axınına səbəb olub. Əlbəttə ki, xüsusi olaraq qeyd etməliyik ki, müasir dünyada turistlərin səyahət seçimi etməsində təhlükəsiz və sabit ölkələrin olması ən əsas göstəricidir. Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib.***





### 2026-CI İLDƏ TURİZM XƏRCLƏMƏLƏRİ 11,2 MİLYARD MANATA ÇATACAQ

Statistik məlumatlara istinadən deyə bilərik ki, 2022-ci ildə Azərbaycana dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. 2022-ci ilin yanvar–noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım müşahidə edilib. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafına təkan verən "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərmiş oldu. Müasir dövrümüzdə ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsi təmin edilir.

### MÖVSÜMİLİK ANLAYIŞINI ARADAN QALDIRAN QIŞ TURİZM BAZASI

İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə cəlb edən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafına uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən komplek Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleks idə mövsümlük anlayışını aradan qaldıran istirahət yerləri sırasındadır. Dağlıq ərazidə istirahət üçün bütün əlverişli şəraitə malik olan bu turizm obyekti Qəbələ şəhərindən təxminən 4 km aralıda yerləşir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin məqsədi ölkəmizdə il boyu dağ turizmini inkişaf etdirmək, yerli və xarici turistlərin yüksək səviyyəli istirahətini təmin etməkdir. Kompleks turistlərə ilboyu kanat gəzintisi, qış mövsümündə müxtəlif mürəkkəblik səviyyəli yollarda xizəklə sürüşməyi, xizəklə sürüşmə təlimi, xizəkçilik məktəbi, iaşə xidməti, uşaq istirahət mərkəzi, otel və digər xidmətləri təklif edir. Kompleksin inşası 2 mərhələdən ibarətdir.

### TURİZM VƏ ONUN FƏRQLİ NÖVLƏRİ

Davamlı olaraq ünvanlı layihələr, turizm sahəsində reallaşan layihələr, görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, idman turizmi, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar, barlı-bəhərli meyvə bağları, atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır. Bu və ya digər amilləri qeyd edərkən adət-ənənələrimiz, milli mətbəximiz də diqqətə çəkməliyik. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur.

### XƏSTƏLİKLƏRİ DAVA-DƏRMANSIZ SAĞALDAN "İSTİSU"

Ölkəmizdə bütün növ turizmlə yanaşı, sağlamlıq turizmin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksəkkeyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Duzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından və s. insanlar yararlanırlar. Masallının istirahət mərkəzləri arasında "İstisu"yun öz yeri var. Buraya gələnlər dincəlməklə yanaşı, müxtəlif xəstəliklərdən də yaxa qurtarmaq imkanı əldə edirlər. "İstisu" sanatoriyası uzun illər primitiv şəkildə fəaliyyət göstərirdi. Masallı şəhərindən 13 kilometr aralıda, qərar tutmuş sanatoriya Dəmbəlov dağının döşündə, Viləş çayının sahilində yerləşir. Tərkibində hidrogen-sulfid, natrium-xlor kalsium, maqnezium-hidrokarbonat və hər litrində 30 milliqram yod var. Bu məhlul xəstəlikləri dava-dərmansız sağaldır. Qədim dövrlərdən yerli sakinlər bu sudan müalicə kimi istifadə ediblər. Dəmbəlov dağının döşündən çıxan isti su ilə revmatizm, oynaq ağrıları, artroz kimi fəsadları, pisarioz, germatit, neyrodermit, göbələk xəstəliyi, ekzema, böyrək və sidik yolları xəstəlikləri – pielit, uretrit, piolonefrit, habelə radikulit, prostatit, hipertoniya, qara ciyər xəstəlikləri və öd xəstəlikləri, qadın xəstəlikləri, mədə-bağırsaq ağrıları, travmatik ağrılar müalicə oluna bilər.

### DUZDAĞ – SAĞLAMLIĞIN BƏRPASINDA ƏVƏZOLUNMAZ YER

Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi də turistlərin sevimli istirahət və müalicə məkanıdır. Yay aylarında təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün Naxçıvan şəhərindən cəmi 12 kilometr məsafədə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayında hər il artım müşahidə olunur. Duzdağ sağlamlığını bərpa etmək istəyənlər üçün əvəzolunmaz yerdir.

*Ardı Səh. 13*

# Sağlamlıq turizmi - dayanıqlı inkişaf

*Prezident İlham Əliyev: "Ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir"*





Əvvəli-Səh-12

Keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzinin şöhrəti hər tərəfə yayılıb. Burada tətbiq olunan müalicə üsulu mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir. Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti müalicənin müsbət nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa duz şaxtasına daxil olması, il ərzində havanın sabit müsbət 20 dərəcə temperaturda qalması, 24 faiz nisbi rütubət, oksigenin havadakı miqdarının 20 faiz təşkil etməsi, sıfıra bərabər hava cərəyanı və zəhərli qazların son dərəcə minimum səviyyəsi Duzdağın müalicəvi effektini artıran əsas amillərdəndir.

## ÖN SIRALARDA OLAN NAFTALAN TURİZMİ

Sağlamlıq turizmindən danışarkən Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin də adını qeyd etməliyik. Xam neftdən müalicəvi istifadəyə görə dünyada məşhur olan Naftalan neftindən, əzələ, dəri, sümük, həmçinin ginekoloji və nevroloji xəstəliklərin müalicəsində də istifadə olunur. Ötən əsrin 80-ci illərində Naftalana müalicə üçün hər il 70 min turist gəlirdi. Lakin sonradan Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğalı nəticəsində öz el-obalarından didərgin düşən insanların bir qismi şəhərdəki sanatoriyalarda məskunlaşmışdı. Bu gün Naftalanın kurort şəhəri kimi nüfuzunun bərpası üçün böyük işlər görülüb və bu davam etməkdədir. Vurğulamaq yerinə düşər ki, 1970-1990-cı illər Naftalan şəhərində dönüş baş verib. Ümummilli Lider Heydər Əliyev şəhərin inkişafı və böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Belə ki, o illərdə şəhərdə müxtəlif sosial və iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilib. Sonrakı dövrdə isə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəldi. Şəhərin əsasını sanatoriya–kurort infrastrukturu təşkil edir. Son illər müasir əsaslarla yeni kurortların yaradılması ilə şəhərin turizm potensialı genişləndirilib, sahibkarlığın inkişafı üçün münbit şərait formalaşıb. "Naftalan Mərkəzi sanatoriyası" da belə layihələrdən biridir. Mərkəz bir çox terapiya sahələrini özündə birləşdirməklə, müxtəlif xəstəliklərin müalicəsi üçün sağlamlıq-profilaktik müəssisəyə çevrilir. Yeni müəssisədə 50 nəfərə yaxın personalın çalışması şəhər əhalisinin məşğulluğunun təmin olunmasına mühüm töhfədir. Əlbəttə ki, Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. Naftalanda fəaliyyət göstərən kurort-sanatoriya müəssisələrində 1000 nəfərdən çox şəxs işlə təmin olunub ki, bu da şəhərdə işsizliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Hazırda fəaliyyət göstərən müəssisələr gün ərzində 3000-ə yaxın turist qəbul etmək imkanına malikdir. Son illərdə Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilib.

## QALAALTI MİNERAL SUYU

Sağlamlıq turizmindən danışarkən Qalaaltı mineral suyunu da qeyd etməliyik. Qida qəbulundan sonra, eləcə də müxtəlif xəstəliklərin müalicəsi zamanı və digər məqsədlər üçün qəbul edilən təbii, müalicəvi mineral süfrə suyu olan Qalaaltı mineral suyu müalicəvi xüsusiyyətlərə malikdir. Mənbələrdə göstərilir ki, onun müalicəvi effekti haqqında ədəbiyyatda olan ilk xatırlamalar 1578-ci illərə aiddir. Alimlərin apardıqları tədqiqatlar göstərmişdir ki, "Qalaaltı" suyu tərkibi etibarı ilə Zakarpatiyada (Truskavets) çıxan mədən suyu "Naftusiya"nın eynidir. "Qalaaltı" mədən suyu tapılana qədər Truskavetsin "Naftusiya" suyu SSRİ-də yeganə hesab olunurdu.

Mədən suyu Şabran rayonunun 20 kilometrliyində Qalaaltı adlanan kəndin üst tərəfində, dağətəyi meşədə 1969-cu ildə tapılmışdır. Meşədə həmin suyun 7 mənbəyi müəyyən edilmişdir. Bunlar da böyük ehtiyata malikdir. Böyük Qafqazın ətəklərində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən "Qalaaltı" sanatoriyası 1976-cı ildən fəaliyyət göstərir. Sanatoriyada müalicə Qalaaltı kəndi ərazisindən çıxan təbii sularla aparılır. Yerlilər müalicə əhəmiyyətli bu suya "Naftsu", yəni neftli su deyirlər. "Naftsu" kəskin qoxusu və dadı ilə seçilir. O həm öz tərkibi ilə, həm də insan orqanizminə olan fizioloji təsirinə görə originaldır. O orqanizmdə maddələr mübadiləsini normallaşdırır, qan və sidiyə qələviləşdirici təsir göstərir, sidik turşusunun yaranmasını azaldır və onun orqanizmdən çıxarılmasına köməklik göstərir, mədə turşuluğunu azaldır, hüceyrə membranalarının keçiriciliyini azaldır, qanaxmanı azaldır, əksiltihabi təsir göstərir, diurezi artırır, orqanizmdə olan artıq mayeni çıxardır.

## "AZƏRBAYCAN KİMİ BELƏ GÖZƏL YERLƏRƏ, TƏBİİ SƏRVƏTLƏRƏ MALİK OLAN BİR ÖLKƏ MÜTLƏQ TURİZMİ İNKİŞAF ETDİRMƏLİDİR"

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Belə bir sağlamlıq mərkəzinə üz tutan turistlər istirahətlə yanaşı, müalicə də olunurlar.

Əlbəttə ki, müasir dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Turizminin inkişafına dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatın aparıcı sahəsinə çevirib. Belə ki, rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına töhfəsini verir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur."

**Nəzakət ƏLƏDDİNQIZI**





# Böyük ombalar necə dəb oldu?



**_Son illərdə qadınların ən çox seçdiyi estetik əməliyyatlardan biri olan ombaböyütmə estetikası ilə bağlı çox müzakirələr aparılır. Səbəbi də sadədir – qəribə bədən quruluşuna malik, sinəsi irəli, arxası geri, əyri görünüşlü qadınların sayı günü-gündən çoxalır._**

## Arıq olan da etdirir, kök olan da

Əksər qadınlar bədənlərinin var olan quruluşundan məmnun olmur, ya sinəsi kiçikdir deyə düşünür, ya da ombaları balacadır deyə fikirləşir. Yaşlanma, arıqlayıb-kökəlmə, keysəriyyə əməliyyatı zamanla bədənə öz izlərini qoyur, əgər aktiv həyat tərzi keçirmirsənsə, daim hərəkətdə deyilsənsə, bədən öz görüntüsünü zamanla dəyişir. Əvvəllər bu görüntünü gözəlləşdirmək üçün idman ən çox seçilən üsul olurdu, amma hazırda qadınlar bədənin əməliyyatla formaya salınması üsuluna üstünlük verirlər.

Hərəkətsizlikdən, çəki artmasından, yaşlanmadan sonra bəzən omba nahiyəsində deformasiyalar yarana bilər. Bəzən genetik deformasiyalar da ombanın qeyri-estetik görünməsinə səbəb olur. Xüsusilə, piylənmə omba və qarın bölgəsində estetik görünməyən sallanmaya səbəb ola bilər. Amma bəzən kifayət qədər arıq, normal çəkili qadınlar da omba əməliyyatı etdirirlər. Ona görə omba estetikası iki cür olur. Birincisi, artıq çəkinin, piylənmənin yaratdığı fəsadlardan sonra omba nahiyəsinin quruluşunun itməsi və bədən xətlərinin ortaya çıxarılması üçün edilən omba əməliyyatı, ikincisi isə çəkisi az olan xanımların ombasının ölçüsünün kiçik olması şikayətinə görə edilən böyütmə əməliyyatı. Artıq çəkili qadınlarda xüsusilə omba nahiyəsinin yan hissəsində çoxlu yağlanma olur. Piylənməsi həddən artıq olan nahiyələrdən piyləri çıxararaq omba nahiyəsinə yeridilir, çəkisi az olan qadınlarda omba dikləşdirmə əməliyyatı implantlar ilə həyata keçirilir.





## Əcaib quruluşlu qadınlar çoxalır

Əvvəllər belə əməliyyatlara səhnə adamları, müğənnilər ehtiyac duyardı, indi ev xanımları da bu əməliyyata girirlər. Tibbdə "Braziliya ombası" kimi tanına bu cür ombalar Braziliyada yerli qadınların normal quruluşudur, lakin daha təbii formada. Əməliyyatla edilən dikləşdirmə süni forma olduğu üçün ilk baxışdan anlaşılır.

Əslində, bu əməliyyat reklam edildiyi qədər asan və sadə əməliyyat deyil, riskləri çoxdur. Dünyanın bir çox ölkəsində bu əməliyyatdan sonra həyatını itirənlər də var. Qadınlar bu riski gözə alaraq əməliyyata girirlər. Araşdırmalar sübut edir ki bədən quruluşu bir çox hallarda qidalanma ilə bağlıdır. Bədənindən narazı olan insanlar onu dəyişdirmək istəyərkən bilmədən yanlış üsullara əl atırlar. Araşdırmadan, dəqiqləşdirmədən bədən formalaşdırma əməliyyatına girən qadınlar əməliyyatdan sonra kiçilmiş qarınlarından, incəlmiş bellərindən və böyük ombalarından razı qalırlar.

Bütün zamanlarda zəriflik və incəlik anlayışı gözəllik və cəlbediciliyin göstəricisi kimi qəbul edilib. Amma bu cəlbedicilik qadınların başına bəla olur. Qaş düzəltmək yerinə vurub göz çıxarmaqları onlara baha başa gəlir. Bir zamanlar azacıq ətli-qanlı qadınlar daha gözəl hesab edilsə də, kaman qaşlar, incə dodaqlar gözəllik etalonu sayılmayalı çox zaman olub. İndi arıq, sinəsi və ombası süni formada böyüdülmüş, qaşları rənglənmiş, dodaqları şişirilmiş, çənəsi itilənmiş qadınlar sayılır etalon. Təbii ki, gözəllikdən anlamayanlar üçün.

## Gözəllik normalardır

Çərçivədən, hədəqədən çıxılmadığı müddətcə gözəllik spesifik olmalıdır. Birinə gözəl görünən böyük dodaqlar digərində ikrah yaradır. İnsanlar öz bədənini olduğu kimi sevmədiyi üçün bu proses uzanacaq. Əvvəlcə öz bədənimizi olduğu kimi qəbul etməliyik. Təbii ki, ətrafımızın və cəmiyyətin bizə biçdiyi don bir çoxu üçün önəmli olsa da, nəyin yaxşı olacağını insan özü müəyyən etməlidir. Sağlam bədənə sahib olmaq həm də sağlam psixologiya deməkdir. Sağlam və düzgün qidalanmaq, idmanla məşğul olmaq çox vacibdir. Xarici görünüşümüzü modaya uyğun dəyişməyə çalışsaq, sonunda özümüzü qeyri-adekvat görməyə başlayarıq. Neçə ki indi çoxları o vəziyyətdədir.

İstədiyimiz qədər trendlərlə ayaqlaşmağa çalışaq, ruhumuz həmişə olduğu kimi qalacaq. Əgər biz öz nəfsimizi qidalandıraraq, inkişaf etdirərək gözəlləşdirsək, bu, zahiri görkəmimizdə, davranışımızda da özünü göstərər. Ətrafımız bizi zahiri görkəmimizə görə deyil, daxili gözəlliyimizə görə sevməli və qəbul etməlidir. İnsanın ruhunun gözəlliyi simasında da əks olunur. Özünü olduğun kimi qəbul etsən, insanlar səni olduğun kimi qəbul edəcəklər. Əsas olan insanların səni necə gördüyü deyil, özünü necə gördüyündür.

**_Lalə Mehralı_**

---



Mətanət Məmmədova

# Sarı Aşıq, gəlginən Güləbirdə...

**_Ey Laçının Sarı Aşığı, illərdir, ruhun yurdunun səmasında dolanırdı, işğal nisgilindən qəbrində özünə rahatlıq tapa bilmirdin. Dur, gəlginən Laçına. Səslə bu yurdun igidlərini, bu torpağın şəhidlərini, bütün oğul-qızlarını yığ başına. Ozan ol, çıx qabağa, azad yurdunun növrağından söhbət aç. Bax ətrafa, gör ki, Laçının hicranı vüsala çevrilib, Laçın yenidən laçınlılara verilmək üçün hazırlanır. Laçının hüsnünü vəsf et. Gəl Güləbirdə, axı sən çox nigarandın Güləbirddən, elə hey bayatılarında deyirdin:_**

*Mən aşiq Güləbirdə,*
*Şeh düşdü Güləbirdə.*
*Bir quş olub uçaydım,*
*Qonaydım gülə bir də.*

Gəl, Sarı Aşıq, doğulduğun Qaradağlı kəndi də, uyuduğun Güləbird də sənin yolunu gözləyir. Gəl, yurdunu Vətən hesab edirdin, gəl, alın açıqlığı ilə hər kəsə de ki:

*Aşıq, Vətən yaxşıdı,*
*Köynək kətan yaxşıdı.*
*Qəriblik cənnət olsa,*
*Yenə Vətən yaxşıdır.*

Gəl, torpaqlarımızı erməni işğalından qarış-qarış azad edən Milli Ordumuzun Müzəffər sərkərdəsi, Ali Baş Komandan cənab İlham Əliyev dünən sevib-seçdiyin, uyuduğun kəndinin-Güləbirdin təməlini qoydu. Amansız düşmən tərəfindən yerlə yeksan olunan gözəl Güləbirdin yenidən qurulur, bərpa olunur, gözün aydın olsun.

Bu xəbəri eşidəndə ilk xəyalıma gələn sən oldun, Sarı Aşıq. Ruhunla bir xeyli söhbət etdim. Sevincimi bölüşmək istədim. Dedim ki, gəl, gör, Güləbird kəndində 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Güləbird kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub, icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sən Güləbirddə salınan bütün evlərdə olacaqsan. Məktəbdə, uşaq baxçasında, istirahət parkında, idman, uşaq meydançalarında, burada nə yaradılacaqsa, hamısında sən olacaqsan. Çünki sən səni sevənlərin, laçınlıların, böyüklü-kiçikli hər kəsin qəlbindəsən. Elə Laçının ilk olaraq Güləbird kəndinin bərpa edilməsi də dövlətimizin başçısının Sarı Aşıq böyüklüyünə verdiyi dəyər, qiymətdir.

Gəl, Sarı Aşıq, bu azad ellərə bayatı qoş, şeir yaz. İndi Qarabağın bir başqa növrağı var. Qarabağ silib gözündən yaşı, yalnız gülümsəyir. 30 illik hicranını vüsal tar-mar edib. 30 il qovduğu Günəş gəlib Qarabağa, doğur, işıq saçır, isidir bu torpaqları...

Qarabağ dünyanın dilində sözdür, igidlərin al qanıdır, Azərbaycanın bayrağıdır. Gəl, sıx sinənə sazını, səsin dağlara yayılsın. İndi hamı deyir, sən də de, sırala misralara ki: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Dəmir yumruq zərbəsi ilə bizim də oldu. Ruhun şaddır, bilirəm, hələ qoy kəndin qurulsun, növrağını gördükcə, daha da şad olacaqsan, ey aşıqlar aşığı, Sarı Aşığım...



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə” istiqaməti çərçivəsində hazırlanıb.*

# Heydər Əliyevin “Böyük Vətən”i qoruyanlara böyük qayğısı

*Ulu Öndərin Böyük Vətən Müharibəsi iştirakçılarına qayğısı və diqqəti İlham Əliyevə miras qaldı*

***Bu il faşizm üzərində qazanılan o möhtəşəm qələbənin 78-ci il dönümüdür. İndi hər nə qədər əksi düşünülsə də, bir zamanlar o da bizim vətənimiz idi. Uğrunda yüzminlərlə şəhid verdiyimiz, yüzminlərlə qazi qazandığımız “Böyük Vətən” - 15 ayrı respublikanın var etdiyi SSRİ. 700 min azərbaycanlının getdiyi sarsıdıcı müharibədən 300 min nəfəri geriyə qayıtmadı, şəhid olduğu uzaq ellərdə dəfn edildi, ailəsi qəbrini görə bilmədi, ziyarət etmək imkanı olmadı.***





### Müharibə iştirakçılarına göstərilən qayğı

4 il o cəbhələrdə göstərdikləri cəsarətə görə 139 soydaşımız “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görüldü, 30 nəfər şərəf ordeni, 170 min əsgər və zabitimiz isə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olundular. Sovet İttifaqı qəhrəmanları Həzi Aslanov, Qafur Məmmədov, Gəray Əsədov, İsrail Məmmədov, Adil Quliyev, Ziya Bünyadov, Mehdi Hüseynzadə və bir çox başqaları öz qəhrəmanlıqları ilə xalqımızın şərəfli adını SSRİ-nin tarixinə heç vaxt silinməyəcək cəsarətlə yazıblar. Kim bilir, o qəhrəmanlar olmasaydı o müharibənin nəticəsi necə olacaqdı...

1996-cı ildə Böyük Vətən müharibəsi iştirakçılarına, müharibə illərində arxa cəbhədə çalışan zəhmətkeşlərə və həlak olmuş döyüşçülərin dul qadınlarına 1941—1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi ilə əlaqədar olaraq əlavə güzəştlər və maddi yardım haqqında Sazişin təsdiq edilməsi barədə qanun Heydər Əliyevin müharibə iştirakçılarına və onların ailələrinə qayğısının hələ başlanğıcı idi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 9 May Qələbə Gününün yenidən dövlət bayramları sırasına daxil edilməsi, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlərin görülməsi, o cümlədən onlara dövlət hesabına mənzil və xüsusi nəqliyyat vasitəsinin verilməsi təmin edildi. Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı “Veteranlar haqqında” Qanunda bu qayğı öz hüquqi əsasını tapdı. “Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olub” – deyən Heydər Əliyev müharibə veteranlarını “xalqımızın qızıl fondu” adlandırırdı.

### 9 Mayı niyə ləğv etmək istəyirdilər?

Müstəqilliyin ilk illərindəki hakimiyyət xalqımızın qəhrəmanlıq tarixini əks etdirən 9 May – Qələbə Gününün dövlət səviyyəsində qeyd edilməsinin əleyhinə idi. Bu addım o müharibədə can qoymuş, şəhid, qazi olmuş minlərlə azərbaycanlıya qarşı hörmətsizlik, saymamazlıq idi. Bu müharibə 70 il bir imperiyanın tərkibində yaşayan, 1990-cı ildə qanı ilə öz azadlıq tarixini yazan bir xalqın tarixidir. Fərqi yoxdur həmin dövrdə SSRİ-nin tərkibində olmuşuq, azad olmuşuq – nəticədə tarixin ən dağıdıcı müharibələrindən birində bu xalqın böyük qəhrəmanlığı, şücaəti var və bu tarixi silmək yüz minlərlə azərbaycanlıya xəyanət etmək demək idi. Bu tarixi silmək o müharibədə şəhid olan azərbaycanlıların ailələrinə qarşı dövlət etinasızlığı demək idi. Lakin Heydər Əliyev buna imkan vermədi.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən Ümummilli Lider Heydər Əliyev deyirdi: “Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur”.

### İlham Əliyev veteranlara xüsusi qayğı göstərir

İkinci Dünya müharibəsində igidlik göstərən müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə ediliblər. “Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik” deyən prezident İlham Əliyev öz atasından miras aldığı bu diqqəti, qayğını müharibə veteranlarına hiss etdirir: “Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar”.

İlham Əliyev 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Hər il müharibə iştirakçılarına, habelə əmək veteranlarına virdəfəlik pul mükafatının verilməsi də, “Böyük Vətən müharibəsi iştirakçılarının “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında” 2020-ci il 1 may tarixli Sərəncam da bu təbəqədən olan vətəndaşlara dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti göstəricisidir.

### Müharibə iştirakçılarının təqaüdləri də artırıldı

Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını alıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2022-ci il 19 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır.

Bu ilin əvvəlində Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması barədə sərəncam da imzaladı. Sərəncamla qeyd olunan şəxslərin aylıq prezident təqaüdü 330 manata qaldırıldı.

***Lalə Mehralı***

Səs
6 may
2023-cü il

# Tərbiyəçi-müəllimlərə niyə vakant yer tapılmır?



*İmtahanın hər iki mərhələsində uğur qazanmış bağça müəllimləri işlə təmin edilmir, çünki vakant yerləri qeyri-ixtisas müəllimləri tutub*

**Məktəbəqədər təlim-tərbiyə müəssisələrinə işə qəbul imtahanında və müsahibədə uğur qazanmış müəllimlər Elm və Təhsil Nazirliyindən şikayətçidir. Müəllimlər iddia edir ki, 3 aydan çox müddətdir onları vakant yer yoxdur bəhanəsi ilə işə yerləşdirmirlər. Müəllimlərdən bir neçəsi redaksiyamıza şikayət məktubu ünvanlanıb. Məktublardan birində deyilir:**



"Salam hörmətli "Səs" qəzeti və əməkdaşları. Mən, Zərifə Cəbrayılova məktəbəqədər təhsil ixtisası üzrə təhsil almışam. Bu il Elm və Təhsil Nazirliyinin təşkil etdiyi tərbiyəçi müəllimlərin işə qəbul imtahanından uğur qazanaraq müsahibəyə dəvət edilmişəm. Müsahibə və psixoloji testdən uğur qazanmışam və şəxsi səhifəmə qısa zaman müddətində faktiki yaşayış ünvanı üzərə yerləşdiriləcəyimlə bağlı məlumat verilib. Lakin artıq aylardır ki, mən və digər uğur qazanan onlarla tərbiyəçi-müəllimlərə heç bir vakansiya təqdim olunmur və bizə heç bir məlumat verilmir.

Sosial şəbəkələrdə, televiziya kanallarında məktəbəqədər təhsil müəssisələrindəki problemlər, müəllim və tərbiyəçi problemləri qabardılır. Elə bu gün bağçalardakı müəllimlərin 5800 nəfərinin ixtisaslı müəllim olmadığı açıqlandı, bəs nazirlik niyə buna göz yumur? Bağçada tərbiyəçi-müəllim olmaq üçün biz xüsusi təhsil alırıq, psixoloji testlərdən keçirik, çünki həssas işdir, hər adam işləyə bilməz uşaqlarla, amma bizim işləməyimizə şərait yaradılmır, əvəzində ixtisası olmayan müəllimlər işləyir. Bəs niyə biz imtahan verdik, müsahibədə iştirak etdik, psixoloji testlərlə niyə yoxladılar? Vakant yer yoxdursa niyə ümidləndirdilər bizi? Hər dəfə nazirliyə müraciətimiz zamanı həlli yolu barəsində vədlər verilir, lakin nəticə yoxdur. Axı müsabiqəni nazirlik keçirib, niyə bizim varlığımızdan xəbəri yoxmuş kimi davranır? Biz xahiş və tələb edirik, haqqımızla qazandığımız iş yerimizlə təmin edilək, işə başlayaq. Başqa heç nə istəmirik."

Elm və Təhsil Nazirliyindən bildirilir ki, vakant yerləri regional təhsil idarələri hazırlayıb təqdim etməlidir, vakant yer nə vaxt yaranacaq, yerləşdirmə nə vaxt baş tutacaq, hələlik, məlumat yoxdur. Bildirilir ki, namizədlərin vakant yerlərə yerləşdirilməsi mərhələli şəkildə il ərzində həyata keçirilir.

Təhsil eksperti Ramin Nurəliyevin sözlərinə görə, məktəbəqədər təlim-tərbiyə müəssisələri İcra hakimiyyətlərinin balansından alınaraq Elm və Təhsil Nazirliyinə verildikdən sonra bu müəssisələrə müəllimlərin işə qəbulu prosedurunun imtahanla olacağını və nəticələrə görə məllimlərin işə qəbulunu reallaşdıracağı açıqlandı. Əlavə olaraq, məktəbəqədər müəssisələrdə qeyri-qanuni işləyən varsa, onların işdən xaric olunması da həyata keçiriləcək. Ekspert deyir ki, məlumata görə bu proses növbəti tədris ilindən etibarən reallaşdırılacaq.

Məlumat üçün bildirək ki, 2022-2023-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə müsabiqənin hər iki mərhələsini keçən müəllimlər hələ də vakant yerin yaranacağını və işlə təmin olunacaqlarını gözləyirlər.

Tərbiyəçi-müəllim vəzifəsi üzrə işə qəbul zamanı vakansiya seçimində məktəbəqədər təhsil müəssisələrinə müsabiqənin həm test, həm də müsahibə mərhələsində uğur qazanan namizədlər iştirak edə bilər. Tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini məktəbəqədər təhsil üzrə bitirmiş, dövlət nümunəli təhsil sənədi almış və ya xarici ölkədə aldığı ali təhsil haqqında sənədi tanınmış Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilmiş şəxslər iştirak edə bilərlər. Müsabiqə elektron ərizələrin yoxlanılması, test imtahanı və müsahibə mərhələlərindən ibarətdir.

Bağçaların İcra Hakimiyyətlərinin balansından çıxarılaraq Elm və Təhsil Nazirliyinin tabeçiliyinə verilməsindən sonrakı müddət ərzində işçi heyətin məlumatları elektron bazalarda toplanılıb və təhlillər aparılıb. Hazırda dövlət məktəbəqədər təhsil müəssisələrində 11 300 nəfər tərbiyəçi-müəllim işləyir, onlardan 51%-nin, yəni 5800 nəfərin məktəbəqədər təhsil sahəsi üzrə müvafiq ali və ya orta ixtisas təhsili yoxdur.

Halbuki "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxslər tərbiyəçi-müəllim vəzifəsində çalışa bilərlər. 2022-2023-cü tədris ilində məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu prosesi ilk dəfə mərkəzləşdirilmiş müsabiqə yolu ilə təşkil olunaraq 102 nəfər işə qəbul edilib. Bizə ünvanlanan şikayət məktubundan da göründüyü kimi müvafiq təhsili olan, müsabiqənin hər iki mərhələsindən uğurla keçən namizədlər qeyri-ixtisaslı bağça müəllimlərinin vakant yerləri tutması səbəbindən işlə təmin olunmurlar.

***Lalə Mehralı***

# Eyni anda iki işdə çalışmaq qanunla mümkündür?

***"Əmək Məcəlləsinin 58-ci maddəsinə əsasən işçinin əsas iş yeri üzrə əmək müqaviləsinin şərtləri imkan verdiyi hallarda o, həm əsas iş yerində, həm də əvəzçilik qaydasında əmək müqaviləsi bağlayaraq başqa iş yerlərində əmək fəaliyyəti ilə məşğul ola bilər. Bu zaman əvəzçilik üzrə əmək müqaviləsi bağlanan iş yeri işçinin əlavə iş yeri, əmək kitabçası saxlanılan yer isə əsas iş yeri sayılır". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Yusif Allahverdiyev və Partnyorları vəkil bürosunun vəkili Murad Hüseynov deyib.***



Murad Hüseynov sözlərinə belə davam edib: "Əvəzçilik üzrə əmək müqaviləsi əmək kitabçası təqdim edilmədən bağlanılır. Əgər işçi əvəzçilik üzrə əlavə iş yerində əsas iş yeri üzrə əmək müqaviləsində nəzərdə tutulan iş saatından sonra işləyəcəksə, bunun üçün əsas işyerindəki işəgötürəndən razılıq almaq tələbi yoxdur. Əvəzçilik üzrə iş əsas iş yerindəki iş saatında olacaqsa, işçi bu halda əsas iş yeri üzrə işəgötürəndən razılıq almalıdır.

Əvəzçilik üzrə iş vaxtının müddəti Əmək Məcəlləsinin 89-cu maddəsi ilə müəyyən edilmiş normanın (8 saat) yarısından çox olmamaqla – işçi ilə əlavə iş yerindəki işəgötürənin razılığı ilə müəyyən edilir.

Əlavə iş yerində çalışmaq istəyən işçiyə aşağıda qeyd edilən hallar istisna olunmaqla heç bir məhdudiyyət qoyulmadan əmək qanunvericiliyi ilə müəyyən edilmiş bütün normalar, qaydalar və müddəalar şamil edilir:

1) Əgər işçi əsas iş yerində zərərli, təhlükəli və insanın sağlamlılığına mənfi təsir göstərən amillər olan əmək şəraitində işləyirsə, onda onun eyni əmək şəraitli əlavə iş yerində əvəzçilik üzrə çalışması yolverilməzdir.

2) Yaşı 18-dən az olan işçilərin əvəzçilik qaydasında əlavə iş yerində çalışmalarına yalnız onların həm əsas, həm də əlavə iş yerində gündəlik iş vaxtının cəmi bu Məcəllənin 91-ci maddəsində onlar üçün nəzərdə tutulmuş qısaldılmış iş vaxtından çox olmadıqda, yol verilə bilər. Yəni həftə ərzində 16 yaşınadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş işçilər üçün, həmçinin hamilə və yaşyarımadək uşağı olan qadınlar və 3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün 36 saatdan artıq olmamalıdır.

## VƏKİL AÇIQLADI

Onu da qeyd edək ki, bilavasitə qanunvericilikdə nəzərdə tutulmuş hallarda dövlət hakimiyyəti orqanlarının müvafiq vəzifəli şəxslərinə bu maddədə nəzərdə tutulan əvəzçilik üzrə əmək müqaviləsi bağlayaraq əlavə iş yerində işləmək hüququ şamil olunmur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqlamasında bildirilir ki, 2014-cü ilin iyulun 1-dən istifadəyə verilən elektron informasiya sistemi bir şəxslə iki və daha artıq iş yerində bağlanmış əmək müqaviləsi bildirişlərinin qeydiyyatdan keçirilməsində heç bir məhdudiyyət yaratmır.

Elektron İnformasiya Sistemi proqram təminatı hazırlanarkən bu məqam nəzərə alınıb. Yəni, hər hansı şəxslə əsas iş yerində bağlanmış əmək müqaviləsi bildirişi qeydiyyatdan keçirilərkən bu iş yeri sistemdə də onun əsas iş yeri kimi əksini tapır. Əlavə iş yerində bağlanmış əmək müqavilələri bildirişi isə sistemdə onun əlavə iş yeri kimi qeydiyyatdan keçirilir. Bütün hallarda Elektron İnformasiya Sistemində işçinin yalnız bir əsas iş yeri qeydiyyatdan keçir və sistem əlavə iş yerinin də əsas iş yeri kimi qeydiyyatdan keçirilməsini təmin etmir".

***Ayşən Vəli***

**ELAN**

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

**Nəfəs və zərb alətləri kafedrası**
**Kafedra müdiri**

**Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.**
**Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.**

**Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**